**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№2 Sosial-siyasi elmlər seriyası 2013***

# PEDAQOGİKA

**UOT 37.02; 371**

## AUDİTORİYA MƏŞĞƏLƏLƏRİNDƏ TƏLƏBƏ MÜSTƏQİL FƏALİYYƏTİNİN TƏŞKİLİ QALIQ BİLİYİNİN FORMALAŞMA YOLU KİMİ

**R.M.MAHMUDOVA**
***Bakı Dövlət Universiteti***
***sosial-sciences&dsu/az***

*Bu məqalə tələbələrdə qalıq biliyinin formalaşması prosesinin tədqiqi açıqlanır. Müəllif qeyd edir ki, müasir dövrdə ali məktəbi bitirdikdən sonra hazırlanmış kadrın qalıq biliyinin məcmusu həm universitetin, həm də mütəxəssisin keyfiyyət göstəricisi olub, tələbənin universiteti bitirdikdən sonra bütün fənlər üzrə əldə edilmiş bilik, bacarıq və vərdişləri özündə cəmləşdirir. Qalıq biliyinin formalaşması müəllimlərin peşə səviyyəsindən, ali məktəbin maddi-texniki bazasından və tələbə müstəqil fəaliyyətinin düzgün təşkilindən və ali məktəbdə təhsilin müxtəlif formalarından səmərəli şəkildə istifadə edilməsindən asılıdır. Bu meyardan çıxış edərək, müəllif qalıq biliyinin formalaşmasında mühazirə və seminar məşğələlərinin tələbə müstəqil fəaliyyətinin təşkili imkanlarını açıqlayır.*

**Açar sözlər:** ali təhsil, qalıq bilik, tələbə təhsilinə kompleks yanaşma, tələbənin motivasiya və tələbatları, təhsil sahəsində sosial siyasət

Ali təhsil orqanları yüksəkixtisaslı kadr hazırlığı məsələsində təlimin keyfiyyətinin artırılması və veriləcək biliklərin məzmununun təkmilləşdirilməsi məsələsini ön plana çəkirlər. Problem müxtəlif illərdə, dövrün tələblərinə müvafiq texnologiya və metodikalara əsaslanaraq öz həllini tapmışdır. Son illərdə təhsil sahəsində aparılan tədqiqatlardan bəlli olmuşdur ki, tələbənin müstəqil fəaliyyətinin səmərəli təşkili vasitəsilə həm təlimin keyfiyyətini artırmaq, həm də tələbələrə veriləcək biliklərin məzmununu genişləndirmək mümkündür. Belə yanaşmada tələbənin müstəqil fəaliyyəti ön plana çəkilir və bu fəaliyyətin səmərəli təşkili həm təlimin keyfiyyətinin artması, həm də biliklərin məzmununun dərinləşməsi ilə nəticələnir.

Təlim prosesində öyrənənin müstəqil fəaliyyəti həmişə olmuşdur. Lakin subyekt-obyekt münasibətlərinə söykənən ənənəvi təhsildə müstəqil fəaliyyət verilmiş tapşırıqları mənimsəmə vasitəsi kimi mənalandırılır, müxtəlif

texnologiyaların vasitəsi ilə tələbəyə təhsil aldığı proqramın məzmununa uyğun olaraq müəyyən həcmdə tapşırıqlar verilir, tələbə müstəqil fəaliyyət göstərərək onları mənimsəyir və sonda onun verilmiş tapşırığı necə öyrənməsi, hafizəsində nəyi saxlaması qiymətləndirilirdi. Müasir təhsildə probleme yanaşma yenilənmiş, müstəqil fəaliyyətin təşkili təlim prosesində strateji əhəmiyyət daşımağa başlamış, təlim prosesi subyekt-subyekt münasibətlərinə söykənərək öyrənənin təlim prosesində müstəqil fəaliyyətə cəlb edilməsi, müstəqil fəaliyyət nəticəsində biliklər əldə etməsi və onun bu fəaliyyətinin qiymətləndirilməsi ilə xarakterizə olunur. Göründüyü kimi, birinci halda məqsəd tələbənin bilik əldə etməsi, ikinci halda isə tələbədə müstəqil fəaliyyətə motivasiya yaratmaq, ona müstəqil işləmək, tədqiqat aparmaq texnologiyalarını öyrətməkdən, müstəqil fəaliyyət göstərmə bacarıqları aşılamaqdan ibarətdir. Başqa sözlə desək, ənənəvi təhsil hafizə ölçülərinə görə, müasir təhsil isə koqnitiv və kreativ ölçülərlə mənalandırılır.

**Tələbə müstəqil fəaliyyətinin təşkili günün tələbi kimi.**

Müstəqillik qarşıya müəyyən məqsəd qoymaq bacarığı, səylə ona nail olmağa, öz qüvvəsi ilə, öz fəaliyyətinə məsuliyyətli yanaşma, bu zaman təkcə tanış olan situasiyada deyil, həm də qeyri-standart situasiyalarda qərarlar qəbul edən, yeni şəraitdə təşəbbüskarlıqla və şüurla hərəkət etmək (15, 689) kimi ifadə edilir. Öyrənənin müstəqilliyi müstəqil idraki fəaliyyət üzərində qurulur. Materialın mənimsənilməsinin əsas şərti informasiyanın müstəqil təhlilindən – əsas anlayışların ayırd edilməsi, səbəb-nəticə əlaqələrinin və onlar arasında münasibətlərin müəyyən edilməsi və beləliklə, təlim materialını analiz və sintez etməkdən ibarətdir. Bu istiqamətdə pedaqoji ədəbiyyatda müstəqillik təfəkkürün müstəqilliyi (1, 3) kimi mənalandırılır.

Müasir dövrdə dünyanın bütün ali məktəblərində ali təhsilin dəyərliliyi tələbələrə müstəqil işləmə bacarıqları və keyfiyyətləri aşılanmasında təzahür edir. Məsələnin belə qoyuluşu hər bir müəllimdən tələbənin idrak fəaliyyətini aktivləşdirməyi, onda müstəqil fəaliyyət keyfiyyətləri aşılamağı tələb edir. Bu zaman müəllim hər bir tələbənin fərdi-psixoloji imkanlarını nəzərə alaraq, onun qabiliyyətlərini inkişaf etdirməlidir.

Müstəqil fəaliyyət tələbəni yaradıcı fəaliyyətə hazırlayır. Lakin yaradıcı fəaliyyətə qədər onun əsas vəzifəsi bilik və bacarıqların, tədqiqatçılıq qabiliyyətinin təkmilləşməsini, öyrənilmiş materialların təkrarını və ümumiləşdirilməsini, alınmış biliklərin tətbiqini, analiz və sintezini həyata keçirməsini, fikrini yazılı və şifahi şəkildə sərbəst şərh edə bilmək qabiliyyətini və s. inkişaf etdirməkdir.

Son illərdə pedaqoji ədəbiyyatda (2; 3; 4; 5) problemə bu istiqamətdən yanaşılır və qeyd edilir ki, tələbənin müstəqil fəaliyyəti yeni biliyin dərindən mənimsənilməsi prosesində müstəqillik keyfiyyətlərinin formalaşması məzmununda mənalandırılmağa başlanmışdır. Müəlliflər müstəqil işi tələbələrin yerinə yetirdikləri tapşırığın xarakteri ilə, bu tapşırıqların şəxsiyyətin inkişafı

üçün onların həlli nəticəsində əldə edilən müstəqillik keyfiyyəti kimi dəyərləndirirlər. Bu tədqiqatlarda qeyd edilir ki, müstəqil iş yeni biliyin dərindən mənimsənilməsi və müstəqillik əldə edilməsi, tələbələrin özləri tərəfindən işin ritminin və qarşıya qoyulmuş məsələnin öyrənilmə vaxtının müəyyən edilməsi kimi əlamətlərə malikdir. Bu tədqiqatlarda təlim prosesində müstəqilliyin səviyyəsi ilə öyrənənlərin idraki fəallığının xarakteri arasında olan asılılıq diqqət mərkəzinə gətirilir. Məsələn, L.V.Jarova şagirdin idrak fəallığı ilə onun təlim fəaliyyətindəki müstəqilliyinin xarakterinin qarşılıqlı əlaqəsinə diqqət yetirir və belə qənaətə gəlir ki, müstəqilliyin səviyyəsi nə qədər yüksək olursa, idrakı fəaliyyətinin xarakteri də bir o qədər yüksək olur (6). Müəllifin qənaəti ilə tam razıyıq.

Bu tədqiqatlara əsaslanaraq deyə bilərik ki, tələbələrin müstəqil fəaliyyəti müəllimlər tərəfindən təşkil edilərək, tələbələri müstəqil öyrənməyə, işləməyə, fəaliyyət göstərməyə, müstəqil fikir və mülahizələr söyləməyə, yaradıcı işgüzarlığa və s. təhrik edən pedaqoji prosesdir. Mahiyyəti etibarilə ali məktəbdə tələbələrdə müstəqil fəaliyyətin təşkili müstəqil öyrənmə bacarıqlarının formalaşmasına xidmət edir ki, bu da son nəticədə tələbənin yüksəkixtisaslı kadr kimi hazırlanmasına xidmət edir.

Ali məktəblərdə hazırlanmış kadrın keyfiyyət göstəricisi son dövrlərdə xüsusi əhəmiyyət kəsb etməyə başlamışdır. Bu əmək bazarında rəqabətin artması ilə bilavasitə bağlı məsələdir. Təbii bu gün dünyanın bütün ölkələrində ki, hazırlanmış kadrların heç də hamısı iş tapa bilmir. Bu onların keyfiyyət göstəricisi ilə bilavasitə əlaqəlidir. Əslində kadrın keyfiyyət göstəricisi bütün dövrlərdə diqqət mərkəzində olmuşdur. Lakin xüsusi ilə sovetlər dönəminin ideologiyasına görə hamının işlə təmin edilməsi, kadrın keyfiyyət göstəricisi anlayışını arxa plana keçirirdi. Dünyanın digər ölkələrində də kadrın keyfiyyət göstəriciləri zamanın tələblərinə uyğun mənalandırılırdı. Müasir dünyada isə rəqabətə davamlı kadr hazırlanması kadrın keyfiyyət göstəricisini aktuallaşdırdı. Nəticədə ali məktəblərdə hazırlanan kadrın keyfiyyət göstəricisi yeni meyarla - qalıq biliyi ilə dəyərləndirilməyə başlandı.

**Qalıq biliyi təlimin keyfiyyətinin nəticəsi kimi.**

Müasir dövrdə ali məktəbi bitirdikdən sonra hazırlanmış kadrın qalıq biliyinin məcmusu həm universitetin, həm də mütəxəssisin keyfiyyət göstəricisi kimi qiymətləndirilir. Tələbə təhsil aldığı illərdə, ona təqdim olunan proqramlar əsasında fənləri öyrənir, kreditləri yığır. Hər bir fənn üzrə ayrılıqda və eləcə də universiteti bitirdikdən sonra bütün fənlər üzrə əldə edilmiş bilik, bacarıq və vərdişlər qalıq biliyi kimi qiymətləndirilir (bax. 7). Burada, tələbənin ali məktəb təhsilini yekunlaşdırarkən, təhsil müddətdə ona tədris olunan bütün fənlərin hər birindən həm ayrılıqda, həm də bütövlükdə əldə etdiyi bilik, bacarıq və vərdişlər sistemi nəzərdə tutulur.

Lakin qalıq biliyinin qiymətləndirilməsi təkcə bilik, bacarıq və vərdişlər sistemi ilə məhdudlaşdırıla bilməz. Burada bilik, bacarıq və vərdişlərin tətbiq

edilməsi də unudulmamalıdır, əksinə biliyin tətbiqi qalıq biliyinin müəyyən edilməsinin əsas meyarı kimi qiymətləndirilməlidir. Aparılan tədqiqatlarda bu istiqamət açıq-aydın görünür. «Qalıq biliyinin üzə çıxarılması təhsil aldıqdan müəyyən müddət keçdikdən sonra tələbənin xüsusi bilik, bacarıq, vərdişlərinin müəyyən edilməsidir. Təlimin nəticələrinin ölçülməsi öyrənənlərin müxtəlif proqramlar əsasında mənimsədikləri və hər an praktikada öz əksini tapa bilən, artıq onların şüurlarında həkk olunmuş xüsusi biliklər (təlimin koqnitiv tərəfləri), bacarıq və vərdişlər (təlimin affektiv tərəfləri) haqqında məlumatlarla yekunlaşır» (8).

Müəllifin izahından aydın olur ki, qalıq bilik təhsili başa vurduqdan hətta bir qədər sonra müəyyənləşdirilə bilər. Bəs, qalıq biliyinin məzmununu necə ayırd etmək olar? Təbii ki, tələbə ali məktəbi bitirəndən sonra nə qədər çox bilik, bacarıq və vərdişlərə malikdirsə, bu onun üstünlüyüdür. Lakin tələbənin qalıq biliyi onun təhsil aldığı ixtisasın standartında öz əksini tapmalıdır. Hal-hazırda dünya ali məktəblərində təhsil standartları tələbənin nəyi bilməli, nəyə yiyələnməli, nəyi bacarmalı suallarına cavab üzərində qurulur. Məsələnin belə qoyuluşu üç istiqamətdə əhəmiyyətlidir.

1. Tələbələrə veriləcək bilik, bacarıq və vərdişlər sisteminə uyğun proqram, dərslik, dərs vəsaiti, əlavə tədris ləvazimatları və s. əvvəlcədən hazırlanır.

2. Müəllimlər tədris etdiyi fənn üzrə pedaqoji işi tələbələrdə qalıq biliyinin formalaşması əsasında qura bilir.

3. Maddi-texniki baza tələbələrə veriləcək bilik, bacarıq və vərdişlər sisteminə uyğunlaşdırıla bilir.

Qalıq biliyi kompleks xarakter daşıyır, onun formalaşmasında təhsil sisteminin obyektiv şəraiti ilə yanaşı, subyektiv tərəfləri də, öyrədən və öyrənənin şəxsində insan amilini nəzərə almaq lazımdır. Məhz buna görə də burada ünsiyyət psixologiyasına, fənlərarası əlaqəyə, interaktiv təlimə, dərsdən sonrakı vaxtın səmərəli təşkilinə geniş yer verilir. Burada, bu və ya digər fənnin öyrənilməsi və bütövlükdə təlimin motivasiyasından, təlabatlarından başlayaraq, tarixi şəraitə, təlimin yerinə və hətta müəllimin şəxsiyyətinə qədər hər şey mühüm əhəmiyyət kəsb edir.

Təhsilin keyfiyyətinin artırılması və bu zəmində qalıq biliyinin formalaşması istiqamətində problemi həll etmək üçün milli xüsusiyyətləri nəzərə almaqla, beynəlxalq təcrübənin öyrənilməsinə və tətbiqinə üstünlük verilməlidir. Müxtəlif ölkələrin təhsil müəssisələrində keçirilən tədqiqatların müqayisəli təhlili göstərir ki, təhsilin keyfiyyətinə nəzarətin Avropa təcrübəsi ilə inkişaf etməkdə olan ölkələrin təcrübəsi arasında fərqlər vardır. Bu fərqləri açıqlamaq üçün təhsilin keyfiyyəti istiqamətində Avropa ali məktəblərində apardığımız monitorinqlərə əsaslanaraq, onların üstünlüklərini qeyd edək.

1. Avropa ali məktəbləri tam informasiya kommunikasiya texnologiyaları ilə təchiz olunmuşdur. Məşğələlərin təşkili informasiya kommunikasiya texnologiyalarının tətbiqi üzərində qurulmuş, tələbələr elektron dərsliklərdən

istifadə edir, dekanlıqla, kafedralarla, müəllimlərlə və digər strukturlarla elektron əlaqələrə malikdir və s. Xüsusən böyük şəhərlərdə, elektron kitabxanalardan istifadə, tələbənin ali məktəbin strukturları ilə elektron əlaqəsi nəzərə çarpacaq vaxt itkisinin qarşısını almaq və qısa müddət ərzində istər metodiki, istərsə inzibati məsləhətlər almaq imkanı verir.

2. Avropa ali məktəblərində yeni biliklərin mənimsənilməsi tələbə müstəqil fəaliyyəti üzərində qurulur: - hər semestrdə fənlər tələbə tərəfindən seçilir və bu tələbənin iş planında öz əksini tapır; fənn müəllimi tələbə tərəfindən müəllimin elektron təqdimatı əsasında seçilir; məşğələlərdə müəllim tələbə əməkdaşlığına üstünlük verilir; məşğələlər müəllimlə tələbənin dioloqu əsasında qurulur; sonda tələbənin hafizə və yaddaşında qalan biliklər deyil, müstəqil fəaliyyətinin nəticələri qiymətləndirilir.

3. Biliklərin həcm və məzmunu da fərqlidir. Burada əsas məsələ böyük sürətlə artan məlumatların və yeni texnologiyaların, texniki yeniliklərin inkişafını izləməyi bacarmaqdır. Avropa ali məktəblərində ən yeni məlumatlar təhsil proqramına daxil edilir, həmin proqramda tələbələrin mənimsəməsi istiqamətində ən yeni texnologiyalar və texniki vasitələrdən istifadə edilir.

Uzunmüddətli ali məktəb təcrübəsi və aparılan müşahidələr göstərir ki, bu problemin həllində həm beynəlxalq təcrübə, həm də milli xüsusiyyətlər nəzərə alınmaqla, daha təkmil bir modelin yaradılması məqsədəuyğun olardı. Belə bir modelin yaradılması çətin və mürəkkəb pedaqoji prosesdir. Burada problemə kompleks yanaşılmalıdır. Son illərdə ölkəmizdə aparılan uğurlu təhsil islahatında bu məqamlara diqqət yetirilir. Ali məktəblərin informasiya kommunikasiya texnologiyaları ilə təminatı nəzərəçarpacaq dərəcədə yaxşılaşmış, standartlar, tədris planları və dərsliklər keyfiyyət dəyişiklikləri ilə fərqlənməyə başlanmış, fənlərin seçimində tələbələrin istəyinə üstünlük verilir, müəllim – tələbə münasibətləri yeni müstəviyə keçmiş və s. Bütün bunlar kifayət pedaqoji əhəmiyyət daşıyır. Lakin nəticə hələ də istənilən səviyyədə deyil. Fikrimizcə, burada ciddi pedaqoji əhəmiyyət kəsb edən bir məqam diqqət mərkəzindən kənar qalmışdır. Dəyişikliklərə ilk növbədə, təlimin təşkili formalarının öz məzmununu yeniləməsi ilə başlamaq lazımdır. Həm mühazirə, həm də seminar məşğələlərini müəllim-tələbə əməkdaşlığı üzərində-tələbənin yaradıcılıq potensialının üzə çıxarılması üzərində qurulması üçün bu məşğələlər tələbədə müstəqil fəaliyyət bacarıqlarının formalaşmasına, onda təlim motivasiyasının yaranmasına xidmət etməlidir. Əslində mühazirə və seminar məşğələlərinə həyata keçirilən dəyişikliklərin ilkin mərhələsi kimi baxılmalıdır.

Tələbə ali məktəbə qəbul olarkən, təlim motivasiyasına malik olmalı, qarşısına müəyyən idraki məqsəd qoymalıdır. Lakin təəssüf hissi ilə qeyd edək ki, ali məktəblərdə apardığımız tədqiqatlardan tələbələrin 70%-ə qədərinin təlim motivasiyasına və idraki məqsədə malik olmadığı müəyyən olmuşdur. Bunun əsas səbəbi kimi, respondentlər (sorğu ali məktəb tələbələri arasında keçirilmişdir) peşəyonümü işinin onlarla düzgün aparılmadığını, peşə seçərkən

səhv etdiklərini, təhsil aldıqları ixtisasın onların maraqlarına uyğun olmaması və s. göstərmişlər. Göründüyü kimi tələbələr mövcud nöqsanları düzgün qiymətləndirmişlər. Bəs, bu nöqsanları necə aradan qaldırmaq, necə deyərlər, kompensasiya etmək olar? Bunun ən optimal yolu mühazirə və seminar məşğələlərinin daha səmərəli təşkilidir.

Ali məktəb təhsili orta məktəb təhsilindən fərqlənir. Bu fərqləri təhlil etmək fikrindən uzaq olaraq, bir məqama diqqəti yönəltmək istərdik ki, müasir dövrdə əgər orta məktəbdə şagirdlərə verilən materialları müstəqil mənimsəmək yolları öyrədilirsə, ali məktəbdə təhsil bütünlüklə tələbənin müstəqil fəaliyyəti üzərində qurulmalıdır. Amma bir çox müəllimlər ali məktəbdə mühazirə və seminar məşğələlərini orta məktəb metodikası üzərində qurduğu üçün tələbə yalnız ona təqdim olunan bilik, bacarıq və vərdişlər sistemini mənimsəməklə fəaliyyətini bitmiş hesab edir. Təbii ki, belə fəaliyyət nəticəsində nə təlim motivasiyası formalaşa bilir, nə də tələbə qarşısına müəyyən idraki məqsəd qoya bilir. Bəs, ali məktəbdə mühazirə və seminar məşğələləri necə təşkil edildikdə, daha düzgün pedaqoji nəticə əldə oluna bilər? Bu məsələni izah edək.

**Qalıq biliyinin formalaşmasında mühazirə məşğələlərinin imkanları.**

Tələbənin müstəqil fəaliyyətinin təşkili mühazirə məşğələsi ilə başlanır. Yəni ali məktəb tələbəsi ilk dəfə mühazirə məşğələsində müstəqil fəaliyyətə başlayır. Mühazirə ali məktəbdə təlimin həm əsas təşkili forması, həm də fəal metodu kimi qiymətləndirilir. Təcrübədə mühazirənin məqsədəuyğun olaraq informasiyaverici, tələbələri müstəqil işə yönəldici formalarından, eləcə də problemli mühazirə, dialoq-mühazirə və s. istifadə olunur.

Təəssüf ki, ali məktəblərdə apardığımız tədqiqatlar zamanı mühazirəyə tələbənin müstəqil fəaliyyətinin təşkili vasitəsi kimi yanaşanların sayının çox az olduğu müəyyən olmuşdur. Belə ki, ali məktəb müəllimlərinə «mühazirənin rolu və əhəmiyyətini başlıca olaraq nədə görürsünüz?» sualı təqdim olunmuşdur. Cavablara əsasən mühazirənin təşkilinə yanaşma baxımından müəllimləri üç qrupa bölmək olar.

1. Respondentlərin 60%-i suala «proqram materialının ardıcıl şərhində» və «proqrama uyğun olaraq informasiya verməkdə» cavabını vermişlər. Bu müəllimlər mühazirənin **«əvvəlcədən icmallaşdırılmış mühazirə»** adlı ənənəvi formasından istifadə edirlər.

Bu qrupa daxil olan müəllimlər dərslikdən və ya əlavə ədəbiyyatdan istifadə edərək, keçəcəyi mövzunu icmallaşdırır. Dərs zamanı heç bir improvizə etmədən, sadəcə, həmin icmalı oxuyur. Bu zaman tələbə mühazirədə passiv dinləyici kimi iştirak edir, müəllimin dediklərini yaddaşında saxlayır və qeydlər aparır. Ən yaxşı halda mühazirədən sonra seminar məşğələsinə hazırlaşarkən müəllimin mühazirədə dedikləri ilə dərslikdə yazılanları müqayisə edir və biliyi yadında saxlayır. Təbii ki, belə mühazirə tələbəni müstəqil fəaliyyətə həvəsləndirmir. O sadəcə olaraq müəllimin verdiyi tapşırığı icra edir. Sual oluna bilər, məgər ev tapşırığını icra edərkən tələbə müstəqil fəaliyyət

göstərmir? Əlbəttə o ev tapşırığını müstəqil olaraq yerinə yetirir. Lakin məzmun baxımından tapşırığın icra edilməsi ilə problemin müstəqil olaraq öyrənilməsi arasında fərq vardır. Belə ki, birinci halda tələbə ona təqdim olunmuş plan əsasında verilmiş materialı mənimsəyir, ikinci halda isə o özü problemi öyrənmək üçün plan hazırlayır, mənbələr seçir, müxtəlif alimlərin fikirlərini müqayisəli təhlil edir, nəticə çıxarır, müstəqil olaraq gəldiyi qənaəti təqdim edir.

2. Sorğuda iştirak edən müəllimlərin 30%-i «tələbənin idrak fəaliyyətinin inkişafında», «elmin həyatı potensialının dərk edilməsində» cavablarını vermişlər.

Bu qrupa daxil edilən müəllimlər birinci qrupa daxil olan müəllimlərdən irəli gedərək mühazirədə tələbələrin fəallığını təmin edən **«tələbə ilə dialoqa üstünlük verilən mühazirə»** formasından istifadə edərlər. Mühazirəçi mövzuya uyğun olan ədəbiyyatla ətraflı tanış olur, onları öyrənir, əhatəli mühazirə mətni hazırlayır və ya onu şərh üçün tezisləşdirir. Mühazirənin planını tərtib edir, istifadə edilən ədəbiyyatı göstərir, tələbəyə hazırlaşmaq üçün məsləhət görülən ədəbiyyatın siyahısını müəyyənləşdirir. Mühazirə mətnini müşayiət edən sxemləri, qrafikləri, slaydları hazırlayır. Düşündürücü sualları müəyyənləşdirir. Fənnin digər mövzuları ilə, eləcədə digər elmlərlə əlaqə üçün məqamları müəyyənləşdirir və məzmunu konkretləşdirir və s. Mühazirəçi hazırladığı mətni onun planı və tezisləri üzrə səlis, rəvan, aydın nitqlə, məntiqi əlaqəliliklə, faktların elmi təhlili ilə şərh edir, tələbələri mühazirənin fəal iştirakçılarına çevirir, onları düşündürür, tez-tez tələbələrlə dialoqa girir, qarşıya qoyulmuş problemi birlikdə həll edir, düşüncələri ümumiləşdirir və nəticə çıxarır. Beləliklə, - təkcə rasional baxımdan deyil, emosional cəhətdən də yüksək səviyyəli məşğələ alınır. Lakin belə mühazirə tələbələrdə yalnız idrakı fəallığın artmasına kömək edir.

Sorğuda iştirak edən müəllimlərin 10%-i «tələbələrdə müstəqil fəaliyyət bacarıqlarının inkişafında», təlim motivasiyasının formalaşmasında» cavablarını vermişlər.

Üçüncü qrupa daxil olan müəllimlər **«sual-cavab üzərində qurulan mühazirə»** formasına üstünlük verirlər. Bu mühazirə formasına üstünlük verən müəllim mühazirə mətnini əvvəlcədən tələbələrə təqdim edir və mühazirənin keçiriləcəyi vaxt tələbələrə elan olunur. Mühazirə zamanı müəllim mühazirənin məzmununu səlis, rəvan, aydın nitqlə, məntiqi əlaqəliliklə, faktların elmi təhlilini qısa şəkildə tələbələrə çatdırır. Sonra tələbələr müəllimə suallar verir. Müəllim suallara birbaşa cavab vermir, tələbə ilə dialoqa girərək, problemin tələbə tərəfindən həll edilməsi üçün şərait yaradır, onları axtarıcılıq və ya qismən axtarıcılıq prosesinə cəlb edir, auditoriyada tələbələrin diskussiyaya girməsinə imkan verir. Nəticədə tələbələri mühazirənin fəal iştirakçılarına çevirir, onları gələcək mütəxəssis kimi düşündürür, qarşıya çıxan problemi həll etməyə onlarda həvəs yaradır, onlara kömək edir, səhvlərini göstərir, elmi

cəhətdən əsaslandırır, problemin həllinin düz istiqamətini onlara göstərir, bir sözlə, tələbələr problemin içinə daxil olur və onu həll etmək istəyirlər. Ən vacibi odur ki, bu zaman tələbə problemin həm nəzəri, həm də praktik cəhətdən dərk edərək, onun üçün gələcək mütəxəssis kimi vacibliyini dərk edir.

Hələ XIX əsrdən məşhur alman pedaqoqu və psixoloqu A.Disterveqin belə bir fikri məlumdur ki, pis müəllim həqiqəti təqdim edir, yaxşısı isə onu tapmağı öyrədir. Bu istiqamətdə mühazirə başlıca olaraq tələbələrin nəzəri hazırlığına, məntiqi nəticələrə gələ bilmək, ümumiləşdirmələr apara bilmək bacarığının formalaşmasına, müstəqil işin əhəmiyyətini başa düşməyə və onun icrasına meyllənməyə, ilkin mənbələrlə və ədəbiyyatla işləməyin məqsədini anlamağa və s. bu kimi xüsusiyyətlərə yiyələnmələrinə kömək etməlidir. Biliyi, məlumatı hazırda dərsliklərdən, kitablardan, İnternetdən və s. almaq olar. Amma insanın özü həyata keçirə bilər.

Son dövrlərdə aparılan tədqiqatlarda da mühazirəyə sadəcə, mövzunun dərslik və ya hər hansı ədəbiyyat üzrə nəqli kimi baxılmır. «Mühazirə sualları üzə çıxarmalı və onlara kitabda, səlahiyyətli adamlarla (xüsusən müəllimlərlə) söhbətdə, müşahidələrdə, düşüncələrdə, eksperimentlərdə cavab tapmağa həvəsləndirməli, nəhayət cəhd göstərmə qabiliyyətini inkişaf etdirməli, lazımi məlumatı tapmağı və onları təhlil etməyi öyrətməlidir» (9, 34).

**Qalıq biliyinin formalaşmasında seminar məşğələlərinin imkanları.**

Tələbə müstəqil fəaliyyətinin formalaşmasında seminar məşğələləri böyük imkanlara malikdir. Bu ilk növbədə seminar məşğələsinin keçirilmə texnologiyasından asılıdır. Məlum olduğu kimi, ali məktəblərdə seminar məşğələlərinin seminar-sorğu, seminar-müsahibə, seminar-disput, məruzə və referatın müzakirəsi, seminar-nəzəri konfrans və digər formalarından istifadə edilir. Bu formaların hər biri tələbə müstəqil fəaliyyətinin tətbiqi üzərində qurulduqda tələbələrdə müstəqil yaradıcı fəaliyyəti inkişaf etdirmək üçün daha geniş imkan yaranır, tələbə verilən bilikləri mənimsəyir, nəticədə onun qalıq biliyi daha dərin xarakter daşıyır.

Apardığımız tədqiqatların nəticələrinə görə seminar məşğələlərini aparan müəllimləri tələbə müstəqil fəaliyyətinə diqqət yetirməyən və tələbə müstəqil fəaliyyəti üzərində quran müəllimlər kimi xarakterizə etmək olar. Birinci qrupa daxil edilən müəllimlər yalnız evə verilmiş tapşırığın necə icra edilməsini yoxlayır və qiymətləndirir. Təbii ki, seminar məşğələsinin təşkilinə belə yanaşma günün tələblərinə uyğun deyil, ümumiyyətlə belə metodika artıq ali məktəb həyatından uzaqlaşdırılmalıdır.

Seminar məşğələlərini tələbə müstəqil fəaliyyəti üzərində quran müəllimlərin də iki qrupunu ayırd edirlər:

- ənənəvi fəal metodlarla işləyərək, tələbələrin idraki fəallığını təmin edən müəllimlər;
- tələbələri axtarıcı fəaliyyətə və yaradıcılığa sövq edən müəllimlər;

Birinci qrupa daxil olan müəllimlər fəal metodlarla işləyir, tələbələrin idraki fəallığını təmin etmək üçün məşğələdə tələbələri disputa, müzakirəyə, dialoqa sövq edir, onları referat, icmal, tezis, məruzə və s. hazırlamağa qoşur və onların əməyini seminar zamanı müzakirə edərək, dəyərləndirib, idrakı fəallığın artması üçün stimul verirlər.

Bu müəllimlər seminar məşğələsinin başlanmasına bir – neçə həftə qalmış tələbələri mövzularla tanış edir, onlara zəruri, ümumi ədəbiyyatın siyahısını təqdim edir, ilk mövzuya dair mühazirə mətnini və dərsliyi oxumağı tapşırır, seminarlarda fərdi tapşırıq üzrə çıxışlara, çıxışların tələbələr tərəfindən müzakirəsinə, opponentlərin və tənqid edənlərin nöqteyi-nəzərlərinin qərarlaşdırılmasına geniş yer verir, ayrı-ayrı tələbələrin hazırladığı referat və məruzələrin müzakirəsini keçirir, tələbələrin oxuduqları ədəbiyyatdan aldıqları informasiyadan istifadə edərkən ona fəal münasibət bildirmələrini tələb edir, tələbələrin sərbəst mühakimələrini, sual-cavab mədəniyyətini, müstəqil fikir söyləmələrini müxtəlif vasitələrlə inkişaf etdirir; onların həm şifahi, həm də yazılı nitqlərinin səlis, məntiqli, sübut-dəlilli, elmi əsaslı və həyati faktlarla zəngin olmasını təmin edən təmrinlərdən istifadə edirlər.

Seminar məşğələsinin təşkilinə belə yanaşmada tələbə idrakı cəhətdən fəal olur, verilmiş tapşırığı müstəqil olaraq öyrənir, ədəbiyyatla işləməyi bacarır, lakin onlarda yaradıcılıq keyfiyyətləri inkişaf etmir. Bunun əsas səbəbi onların verilən problemi idrakı cəhətdən fəallıqla mənimsəməsidir. Belə tələbələr praktikada problemin tətbiqi zamanı müxtəlif çətinliklərlə qarşılaşırlar. Problemi öyrənmək təlim prosesinin yalnız bir tərəfidir, həmin problemi tətbiq etmək lazımdır. Məlum olduğu kimi, hər bir problemin tətbiqinin çoxlu çalarları vardır. İdraki cəhətdən fəallıqla biliyin mənimsənilməsi nə qədər maraqlı olsa, biliyin tətbiqinin tətbiqində yaradıcı keyfiyyətlərin formalaşması imkanlarını özündə ehtiva etmir. Bunun üçün seminar məşğələlərində yaradıcı fəaliyyətin inkişafına geniş yer vermək lazımdır.

Seminar məşğələlərində yaradıcı fəaliyyətin inkişafına geniş yer verən müəllimlər tələbə müstəqilliyini hərəkətdə, münasibətdə, fikri fəaliyyətdə, disput və müzakirədə, məruzə və çıxışlarda, dialoqda, əməkdaşlıqda və tədqiqatda görürlər. Bu halda tələbələr yalnız elmi vərdişlər, müstəqil idrak qabiliyyəti, fikri fəaliyyət sərbəstliyi qazanmır, əsası odur ki, onlar sərrast, azad, sözü eşidilən, qiymətləndirilən insan kimi özünüdərk, özünə inam prosesi keçirir, yaradıcı keyfiyyətlərə malik olur, bildiklərini müxtəlif situasiyalara tətbiq edə bilir, səhv etdikdə onu tez düzəldə bilir, situasiyanı düzgün qiymətləndirir.

Seminar məşğələsi auditoriya şəraitində müəllimin iştirakı ilə keçdiyindən, tələbələrin məsləhət və istiqamət almaq imkanları çoxdur. Tələbələr müqayisələr aparır, nəticə çıxarır, yaxud əldə etdikləri informasiyanı, elmi məlumatı çatdırır, inamla müzakirə edirlər. Sonda müəllimin onları qiymətləndirməsi nəticəsində nə dərəcədə haqlı və ya haqsız olduqlarını müəyyənləşdirə bilirlər.

Tələbələrini seminarda yaradıcılığa sövq edən müəllimlər seminar mövzusu ilə əlaqədar, yaxud tapşırıq üzrə pedaqoji mülahizələrini əhatə edən tələbələrin hazırladıqları yazıları müzakirə edir və onu yazanları həvəsləndirirlər. Əlbəttə, hamı sərbəst yaradıcılıq nümayiş etdirə bilməz. Ona görə seminar məşğələlərində tələbələrin hər hansı fəaliyyətə könüllü qoşulma meylini, marağını, təbii qabiliyyətlərini əsas götürmələrinə imkan verirlər.

Seminarlarda tələbələrin müstəqil iş imkanları həm nəzəri, həm də əməli baxımdan çox genişdir. Bu imkandan necə istifadə edilməsi isə müəllimin hazırlığı və metodik ustalığından asılıdır. Tək-tək xüsusi istedadlı tələbələri çıxmaq şərtilə, qalan tələbələrin müstəqil iş fəallığı, bacarığı, yetkinliyi, onun yaradıcılığa, elmi tədqiqi işə çevrilməsi bilavasitə seminardan asılıdır.

Tədris hər bir təhsil alanı, ilk növbədə, sosial həyata, cəmiyyətdə mövqe qazanmağa, iqtisadi münasibətlərdə fəal iştiraka hazırlamalıdır. Ona görə də, seminar məşğələsi tələbə üçün ideyaları toplayan və saxlayan bir vasitəyə çevirməli, onların şüurlu yaradıcılar kimi formalaşmasına təsir göstərməlidir. Buna görə seminar məşğələsi zamanı tələbələrdə aşağıdakı keyfiyyətlərin formalaşmasına diqqət verilməlidir: - innovasiyalara hazır olmaq, müstəqillik, məsuliyyət hissi, yeni, həmişə dəyişən informasiyaları qavramağa hazır olmaq, fasiləsiz təhsilə qabil olmaq, yeni tədqiqat metodikalarından istifadəyə səy etmək, adamlarla ünsiyyət bacarığı, tənqidi düşüncə bacarığı, öz ixtisas və fəaliyyət sahəsi üzrə biliklərə malik olmaq və s.

Bu zaman debatdan, işgüzar və didaktik oyunlardan, əqli hücumdan (intellektual məşqlərdən) və s. istifadə etməklə yüksək fəallıq və müstəqil iş şəraiti yaratmaq mümkündür. Seminar müəllimi irəlicədən məşğələyə hazırlaşmalı, işi necə quracağını (metodik, didaktik, psixoloji baxımdan və s.) müəyyənləşdirməli, didaktik materialları hazırlamaldıır.

Professor N.Kazımov diqqəti seminarın səciyyəvi cəhətlərinə cəlb etmək məqsədilə yazır: «Seminarda tələbə dinləyici kimi iştirak etmir. O işləməli, fəal düşünməli, müxtəlif fikirləri tutuşdurmalı, mühakimə yürütməli olur. Tələbə seminar məşğələsinin mövzusu üzrə verilmiş plana uyğun olaraq göstərilən mənbələri nəzərdən keçirir və qarşıdakı müzakirəyə hazır gəlir» (10, 128).

Cəmiyyətin yeni inkişaf səviyyəsi TMİ-nin tədqiqatçılıq-yaradıcılıq səviyyəsində qurulmasını tələb edir.

Beləliklə, auditoriya məşğələlərində TMİ tələbələrdə müstəqil iş fəaliyyətinin: a) pedaqoji-didaktik, metodik, psixoloji-fizioloji, sosial aspektdən bələdliyini və elmi, texnoloji-pratkik hazırlığını həyata keçirir; b) tələbələrin fikri fəaliyyətini inkişaf etdirir, idrak fəallığını artırır, fərdi-idraki şəxsi-yaradıcı mövqeyini formalaşdırır, müstəqilliyə, çevikliyə, demokratik ünsiyyətə, polemika mədəniyyətinə hazırlayır, elmi-tədqiqi istiqamətə yönəldir və s. Bütün bunlar mühazirə və seminar məşğələlərinin verdikləri didaktik-metodik, texnoloji imkanlara və elmi-nəzəri məlumatlanma və öz üzərində işləmə

nəticəsində mümkün olur. Bu da, öz növbəsində qalıq biliyinin formalaşmasına imkan yaradır.

## ƏDƏBİYYAT


1. Ковалев Г.Е. Организация самостоятельной работы студентов на основе деятельной теории учения. СПб: 1995, 3 с.
2. Гапон Э.В. Педагогические условия повышения эффективности самостоятельной работы студентов. Дисс. на соиск. уч. степени канд.пед.наук. Харьков, 1991, 211 с.
3. Гришанова Н.А. Использование активных форм и методов обучения в преподавании спецдисциплин. М.: ИПКСК, 1996, 41 с.
4. Актуальные проблемы развития познавательной активности и самостоятельности студентов. Саратов: СГУ, 1987, 289 с.
5. Вергасов В.М. Активизация познавательной деятельности студентов в высшей школе. Киев, 1985, 172 с.
6. Жаркова Л.В. Учить самостоятельности. М.: Просвещение, 1984, 144 с.
7. Национальная педагогическая энциклопедия // http://didacts.ru/di ctionary/1039/word
8. Learning Outcomes // http://web.worldbank.org
9. Feyqenberq İ.M. Лекция отвечающая требованиям времени. Вестник высшей школы. М., 1989, №1.
10. Kazımov N.M. Ali məktəb pedaqogikası. Bakı: Nicat, 1999, 128 s.


## ОРГАНИЗАЦИЯ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ В ПРОЦЕССЕ АУДИТОРНЫХ ЗАНЯТИЙ КАК ПУТЬ ФОРМИРОВАНИЯ ОСТАТОЧНЫХ ЗНАНИЙ


**Р.М.МАХМУДОВА**


### РЕЗЮМЕ


В данной статье раскрывается процесс формирования остаточных знаний у студентов. Автор подчеркивает, что в современный период у кадровых специалистов после окончания высшей школы совокупность остаточных знаний, являясь качественным показателем как университетской деятельности, так и знаний, умений и навыков специалиста, воплощает в себе указанные стороны когнитивной деятельности. Формирование остаточных знаний зависит во многом от профессионального уровня преподавателей, материально-технической базы высшей школы и правильной организации самостоятельной работы студентов. Здесь играет роль также эффективное использование различных форм организации учебного процесса в вузе. Исходя из этого критерия, автор делает попытку раскрыть роль организации самостоятельной работы студентов на семинарах и лекциях в формировании остаточных знаний.



**Ключевые слова**: высшее образование, остаточные знания, комплексный подход к студенческому образованию, потребности и мотивация студентов, социальная политика в системе образования

**ORGANIZATION OF STUDENTS' INDEPENDENT ACTIVITY IN LECTURE-HALL CLASSES AS A WAY OF FORMATION OF REMNANT KNOWLEDGE**

**R.M.MAHMUDOVA**

**SUMMARY**

The presented article studies the process of formation of remnant knowledge of students. The author notes that in contemporary period, the collection of remnant knowledges of graduate personnel is the quality indication of both the specialist and the university and unifies the skills and abilities of students on all subjects. The formation of remanant knowledge depends on the professional level of teachers, material and technical basis of the school, proper organization of students' independent activity and efficient application of different forms of education at higher schools. From this point of view, the author tries to explain opportunities of lectures and seminars for organization of remnant knowledge of students.

**Key words:** higher education, remnant knowledge, a complex approach towards students' education, students' motivation and needs, social policy on the field of education